

# Şanlı və parlaq salnamənin yarandığı zaman

*1969-cu ilin 14 iyulunda Ulu Öndər Heydər Əliyevin Azərbaycan KP MK-nin birinci katibi seçilməsi ölkəmizin müstəqillik tarixinin və intibahının başlanğıc tarixidir. Dünyaşöhrətli siyasi xadim Heydər Əliyev hakimiyyətinin birinci dövründə müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaratdı, sözün bütün mənasında bu müstəqilliyin fundamental əsaslarını qurdu. Dahi şəxsiyyət həmin dövrdə bütün ideoloji-siyasi maneələrə sinə gərərək Azərbaycan xalqının milli inkişaf konsepsiyasını irəli sürüb, ictimai şüurdakı qorxunu aradan qaldırıb, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi və iqtisadi yüksəlişlərə ruhlandırıb.*

Ümummilli liderin 1969-cu ildə hakimiyyətə gəlişi ilə başladığı siyasi və iqtisadi islahatlar tam mənada müstəqil Azərbaycanın təməl daşları idi. Azərbaycan Konstitusiyasının qəbulu, ana dilimizin rəsmi dövlət dili elan olunması, milli kadrların idarəçilikdə irəli çəkilməsi, aqrar və sənaye infrastrukturun, ölkədaxili müstəqilliyin təmin edilməsi, neft sənayesinin müasir standartlara çatdırılması, ədəbi və mədəni sahədə milli intibaha nail olunması böyük Heydər Əliyevin hakimiyyətdə olmasının nəticəsi idi. Ümummilli lider Azərbaycan qarşısında misilsiz xidmətlər göstərdi və xalq məhəbbətini qazandı. Bu tarixdən etibarən Heydər Əliyevin rəhbərliyi ilə respublikamız yalnız həyatın bütün sahələrində sürətli yüksəlişə qədəm qoymadı, eyni zamanda milli ruhun inkişafı, tərəqqisi dövrü başlandı. Atdığı hər addımda onun Azərbaycanın gələcəyini düşünməsinin şahidi oluruq və görülən işlər milli ruhun dirçəldilməsinə xidmət edirdi. Bu proseslər ölkəmizin müstəqilliyi üçün davamlı şəkildə zəmin yaradırdı. Tarix bir daha sübut etdi ki, Heydər Əliyevin siyasi səhnədə varlığı milli inkişaf dövrümüzün başlanğıcı oldu.

Dahi rəhbər həmişə canı qədər sevdiyi ölkəsini müstəqil görmək istəyib. Ulu Öndər bilirdi ki, müstəqilliyi əldə etmək üçün möhkəm təməl, iqtisadi inkişaf lazımdır. Buna görə də 1969-cu ildən başlayaraq ölkə iqtisadiyyatının gücləndirilməsi Ulu Öndərimizin siyasi xəttinin əsasını təşkil edirdi. 1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrilib. Bu, Heydər Əliyev siyasi müdrikliyinin və uzaqgörənliyinin göstəricisi idi. Sonralar həmin dövrdə həyata keçirdiyi tədbirlərdən danışan ulu öndər Heydər Əliyev demişdir: "Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl, iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur". Təsadüfi deyil ki, 1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur.

Həmin illərdə ölkə birmənalı şəkildə bütün istiqamətləri üzrə müstəqilliyə hazırlanırdı. Heydər Əliyev müstəqil dövlətçiliyimiz üçün həyati əhəmiyyət kəsb edən milli kadrların hazırlanmasında mühüm baza rolunu oynayan elmin, təhsilin inkişafına da xüsusi diqqət yetirib. Həmin illər həm də Azərbaycanda elm və təhsilin inkişaf dövrü kimi xatırlanır. Bu da təsadüfi deyildi. Çünki Ulu Öndər yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsindədir. Ulu Öndərimiz ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir. Dahi rəhbər deyirdi: "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır".

Ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi ilə təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənardakı ali məktəblərə gənclərin göndərilməsi, hərbi kadrların yetişdirilməsi, respublika elmlər akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaratmışdır. Ulu Öndər yaxşı bilirdi ki, yüksək ixtisaslı mütəxəssislər yetişdirilməsi istənilən ölkədə dövlət müstəqilliyinin əsasını təşkil edən ən mühüm amillərdən biridir. Buna görə cəmiyyətin inkişaf zəminini düzgün olaraq təhsildə və maarifçilikdə görürdü, bu sahənin inkişafına diqqət və qayğısını əsirgəmirdi.

Məhz həmin illərdə respublikada məktəblərin, ali və orta ixtisas müəssisələri üçün yeni binaların tikintisi geniş vüsət almış, təhsil infrastrukturu tamamilə yeniləşdirilmiş, ixtisaslı kadrlar hazırlayan ali və orta ixtisas məktəbləri açılmışdır. Respublikanın müxtəlif bölgələrində 800-ə yaxın məktəb tikilərək istifadəyə verilmiş, ölkəmizdə fəaliyyət göstərən ali məktəblərin ümumi sayı 12-dən 17-yə, tələbələrin sayı 70 mindən 100 minə qədər artmışdır. Xüsusilə, 1970-1980-ci illərdə Ümummilli Lider Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və xüsusi ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil alması-na, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şəraitin yaradılması təkcə elmi deyil, həm də böyük siyasi əhəmiyyəti olan hadisə idi. Azərbaycandan kənarda təhsil alanların milli tərkibində azərbaycanlıların sayı 1970-ci ilədək 40 faiz təşkil edirdisə, ümummilli lider Heydər Əliyevin apardığı uzaqgörən siyasət nəticəsində 1976-cı ildə müvafiq göstərici 85 faizə, 1977-ci ildə 92 faizə, 1980-ci illərin əvvəllərində isə 97,6 faizə yüksəlmiş oldu. Bu addımlar öz xarakteri etibarilə strateji məzmun kəsb edirdi. Daha dəqiq desək, bir tərəfdən Azərbaycanın yüksəkixtisaslı kadrlara olan ehtiyacı təmin edilir, digər tərəfdən potensial Azərbaycan diasporunun formalaşması prosesinin konturları cızılırdı. Təsadüfi deyildir ki, bu gün MDB məkanında Azərbaycan diasporunun sosial tərkibinin böyük bir hissəsini məhz həmin illərdə ulu öndərin xeyir-duası ilə təhsil almış insanlar təşkil edir və onlar müstəqil dövlətimizin maraqlarını təmsil olunduqları ölkələrdə şərəflə qoruyurlar.

Ulu Öndərin ölkəyə birinci rəhbərliyi dövründə danılmaz xidmətlərindən biri də Ordumuzun gücləndirilməsi, milli hərbi kadrların hazırlanması məqsədilə, imperiya rəhbərlərinin etirazına baxmayaraq, Azərbaycanda Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin açılması oldu. Ümummilli Liderin 70-ci illərdə başladığı hərbi quruculuq prosesi ikinci dəfə müstəqillik qazanan Azərbaycanın Silahlı Qüvvələrinin zabit heyətinin formalaşmasında müstəsna rol oynayıb.

Bəli, bu bir həqiqətdir ki, həmin dövrlərdə ulu öndər Heydər Əliyevin səyi nəticəsində müasir Azərbaycanın təməli qoyuldu. Bu gün yerləşdiyi regionun lider dövlətinə çevrilən, parlaq qələbəsi ilə regionda yeni syasi reallıqlar formalaşdıran Azərbaycanın inkişafının əsasında məhz həmin dövrdə Ümummilli lider tərəfindən əsası qoyulan siyasi kurs dayanır və bu kurs bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Tam əminliklə deyə bilərik ki, bugünkü güclü Azərbaycan Ulu Öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycandır.

**Tamam CƏFƏROVA,**
**Milli Məclisin deputatı.**